# MÜSTƏQİL DÖVLƏTİN HÜQUQİ BAZASI

Hüquqi dövlət quruculuğu yoluna qədəm qoyan hər bir ölkə ən əvvəl mütərəqqi, demokratik qanunların qəbuluna, qanunvericilik sisteminin təkmilləşməsinə, normativ aktların zamanın və beynəlxalq hüququn tələblərinə uyğunlaşdırılmasına çalışır. Dünya arenasında özünəməxsus yerə malik Azərbaycan da həmin mərhələləri heç bir kənar təsirə ehtiyac duymadan, böyük həvəslə keçib. Məlumdur ki, 1918–1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, respublikamızda konstitusiya quruluşunun tarixi, əsasən, SSRİ tərkibində olduğu dövrə düşür. Birinci konstitusiya 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edildi. Azərbaycan SSR Konstitusiyasının yeni redaksiyası isə 1925-ci il martın 14-də elan olundu. 1978-ci il aprelin 21-də qəbul edilmiş son konstitusiya da əvvəlkilər kimi ittifaqın Əsas Qanununa uyğunlaşdırılmış şəkildə idi.

**Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni konstitusiyanın hazırlanması zərurəti yarandı. Bunun üçün Prezident Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradıldı, layihə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil ölkəmizin ilk Əsas Qanunu qəbul olundu. Beləliklə, hər il noyabr ayının 12-si Azərbaycan Respublikasının Konstitusiyası Günü kimi qeyd edilir.**

5 bölmə, 12 fəsil və 158 maddədən ibarət konstitusiyamıza ilk əlavə və dəyişikliklər 24 avqust 2002-ci ildə, sonuncu dəfə isə 26 sentyabr 2016-cı ildə referendum yolu ilə reallaşıb.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təminini, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək aşağıdakı niyyətlərini bəyan edir:

– Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

– konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;

– vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;

– xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;

– ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;

– ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Rasim

